**Fazilə NƏBİYEVA**

AMK-nın "Milli musiqi alətlərinin
təkmilləşdirilməsi" elmi-tədqiqat
laboratoriyasının baş elmi işçisi
Sənətşünaslıq üzrə fəlsəfə doktoru
Ünvan: Bakı, Yasamal rayonu, Ə.Ələkbərov 7
E-mail: nebiyeva.fazile@mail.ru

# "TƏNZƏRƏ" YALLI RƏQSİNİN VARİANTLARINDA SPESİFİK CƏHƏTLƏR

***Xülasə:*** *Təqdim olunan məqalə qədim tarixə malik, birlik və vəhdət mücəssəməsi olan, YUNESKO-nun təcili qorunma siyahısına daxil edilmiş Azərbaycan yallı rəqsi "Tənzərə" barədədir. Araşdırmada bu rəqsin etimologiyasına dair mülahizələr göstərilmiş, müxtəlif illərdə ayrı-ayrı tədqiqatçılar tərəfindən toplanaraq nota yazılmış "Tənzərə" yallısının variantları müqayisəli təhlillərə cəlb edilmişdir. Variantların spesifik xüsusiyyətləri müəllif tərəfindən tərtib olunmuş cədvəllərdə öz əksini tapmışdır.*
***Açar sözlər:*** *rəqs, yallı, Tənzərə, notlaşdırma, variant*

Geyinmişəm zər-ziba,
Üstü-başı mən zərəm.
Həna tökmüşəm qaba,
"Tənzərə"m ay, "Tənzərə"m.

Qədim zamanlardan kütləvi şəkildə günəşin şərəfinə keçirilən ayin və mərasimlərdə ifa edilmiş Azərbaycan "yallı" rəqsləri sinkretik sənət növü olub müasir dövrdə "Novruz" bayramının və toy mərasimlərinin ayrılmaz atributlarından biri kimi xalqımızın mədəniyyətində özünə layiqli yer tutur. "Yallı" sözünün kökü "uca ad"la [12, s. 79-80] günəşlə sıx bağlı olduğuna görə Azərbaycan etnomusiqişünaslığında və etnoxoreoqrafiyasında bu rəqsin çoxlu sayda növü qeydə alınmışdır ki, onlardan biri də "Tənzərə" adlanır. "Tənzərə" – Dan işığı adında Günəş tanrısına işarə kimi təkrarlanır. Bu yallı eyni adda Türkiyənin Artvin, Şavşad bölgələrində rəqs zamanı səcdə xarakterli hərəkətlərlə qeydə alınır. Bu da yallının tanrı adına icra olunan qədim ayin, rəqs növü olduğunu Naxçıvan yallılarının ümumtürk mədəniyyətinə təsirini sübut edir" [11, s. 338].

Milli-mənəvi sərvətlərimizin incilərindən sayılan yallı rəqslərinin toplanması, nota salınması və tədqiqata cəlb edilməsi müasir Azərbaycan etnomusiqişünaslığının prioritet məsələlərindən biri olduğu üçün bu sahədə müxtəlif dövrlərdə əhəmiyyətli işlər görülmüşdür. "Yallı" rəqslərinin mədəni irsimizin qorunması və gələcək nəsillərə həm də nota yazılmış şəkildə çatdırılması istiqamətində müxtəlif alimlərin fəaliy-

yəti təqdirəlayiqdir. Ayrı-ayrı illərdə etnomusiqişünaslar və bəstəkarlar tərəfindən nota salınmış nümunələr həm melodik, forma, məqam quruluşu və folklor-rəqs ifaçılığı xüsusiyyətləri baxımından, həm də musiqi tariximizin qədim dövrlərinin öyrənilməsi nöqteyi-nəzərindən ciddi elmi maraq doğurur.

Hazırki məqalədə müxtəlif alimlər tərəfindən notlaşdırılmış "Tənzərə" yallısını not yazılarına əsasən müqayisəli şəkildə araşdırmaqda məqsədimiz bu qədim xalq musiqi və xoreoqrafiya incilərimizi qoruyub saxlamaqla yanaşı, onlar arasında arxaik nümunələri aşkar etmək və gələcək nəsillərə çatdırmaqdır. Ümumiyyətlə, hər hansı yallı nümunəsi haqqında dəqiq qənaətə gəlmək üçün onun variantlarının müqayisəli təhlil edilməsinin vacib olduğunu düşünürük. Bu məqalədə "Tənzərə" yallısının variantları arasındakı oxşar və fərqli cəhətləri, onların özünəməxsus xüsusiyyətlərini, eləcə də invariantları üzə çıxarmağa müəyyən təşəbbüs göstərmişik.

Elmi mənbələrdə "Tənzərə" rəqsinin etimologiyasına dair mövcud olan mülahizələrə nəzər salaq. Vasif Çörəkçinin yazdığına görə "Mənzərə" bu yallının qədim adı olub, illər ötdükcə "Tənzərə" şəklinə düşüb [8, s. 53]. Kamal Həsənovun fikrincə, "Tənzərə" əsasən hərfi mənada "qızılı tənbətən" mənasını bildirir. Əvvəllər bu rəqsi qadınlar təmtəraqlı, qızıl bəzək-düzəkdən - boyunbağıdan, muncuqdan, sırğadan, üzükdən və başqa cavahiratdan nəyi varsa, hamısını taxıb oynardılar [6, s. 59]. Ədalət Kərimlinin yazdığına görə bu yallıda qadınlar çoxlu zər-ziba, bər-bəzək vururlar. Yəni ifaçıların geyimi zərli olur və bu geyimin üstündə daş-qaş və köhnə pul düzümləri olur. İfaçılar yallının ritmlərinə uyğun hərəkət etdikcə paltarın üstündəki bəzək əşyaları silkələnir və zurnada çalınan musiqinin ritmi ilə bir uyğunluq, ahəngdarlıq təşkil edir. Yallının adı da məhz buradan götürülmüşdür. Tənzərə - yəni yarı zər, yarı bəzək-düzək. Qadınlar qurşaqdan yuxarı zinət əşyaları taxırlar. Bellərinə zərli kəmər bağlayırlar. Şərurun kənd toylarında ən çox ifa edilən yallıdır [13, s. 30]. Rauf Bəhmənli qeyd etmişdir ki, "tən" – yarı, "zər" isə bahalı daş-qaş mənasında işlədilmişdir. "Rəqsi qadınlar ifa edir. Keçmiş zamanlar yallıya düzülən qadınlar yaxalarına bütün daş-qaşlarını, zinət əşyalarını vurar, bellərinə qızıl, gümüş kəmərlər taxardılar. Bu səbəbdən rəqsə "Tənzərə" adı verilmişdir" [3, s. 102].

Firudin Rzayev "Köçəri", "Tənzərə", "Dönə", "Sərsəri" kimi yallı adlarında daha çox əski türk Kas, Şir, Tuna kimi tayfa adlarının təkrarını izlədiyini və burada hər bir tayfanın özünə aid ritual rəqslərinin olduğu faktının danılmazlığını qeyd etmişdir [10, s. 189-225].

Əqidə Ələkbərova tədqiqat işində "Köçəri" və "Tənzərə"nin gənclər tərəfindən ifa olunan süjetsiz yallılar olduğunu bildirmişdir. Onun təsnifatına əsasən həmin yallılar hazırda instrumental növə aiddir[15, s. 63-64]. Ə.Ələkbərovanın yazdığına görə C.Cəlilov "Tənzərə"də poetik mətn və oxumanın eyni növlü ritm sayəsində statik olduğunu qeyd etmişdir. Görkəmli etnomusiqişünas poetik mətn və oxuma ilə diqqəti cəlb edən "Tənzərə"ni vokal-instrumental, yəni yallı janrının klassik ifaçılıq forması olduğunu bildirmişdir. Ə.Ələkbərovanın verdiyi məlumatdan belə aydın olur ki, həmin dövrdə "Tənzərə" sırf instrumental şəkildə mövcud olub və onun mahnısının poetik mətni saxlanılmayıb" [15, s. 63-64].

Göründüyü kimi, musiqi folklorunun ayrılmaz tərkib hissəsini təşkil edən “Tənzərə” yallısı uzun tarixi inkişaf prosesləri ərzində vokal-instrumental yallı növündən instrumental növə keçərək xalqımızın mənəvi mədəniyyətinin ayrılmaz tərkib hissələrindən birinə çevrilmişdir. Bu fakt folklor nümunələrinin daima yenilənməsinin və inkişafda olduğunun təzahürüdür. Mənbələrlə tanışlıqdan sonra belə qənaətə gəlirik ki, əvvəllər qadınlar tərəfindən təqdim olunan “Tənzərə” yallısı müasir dövrdə qadınların kişilər ilə birlikdə ifa etdikləri kütləvi xalq rəqsinə çevrilmişdir.

“Yallı”ların toplanması, nota salınması və nəşri sahəsində böyük xidmətlər göstərmiş Bayram Hüseynli 25 nümunəni “Azərbaycan xalq rəqs melodiyaları” (1965) adlı birinci dəftərdə [4] nəşr etdirmişdir. Onun yallı nümunələrini Naxçıvan MR-nın Ordubad, Şərur və Şahbuz rayonlarından toplaması faktı təsadüfi hal deyil. Çünki yallı rəqsləri və onların səciyyəvi ifası daha çox həmin ərazilərdə geniş şəkildə yayılıb və hal-hazırda xalq arasında, eləcə də müxtəlif yaş kateqoriyalarını əhatə edən rəqs kollektivləri tərəfindən yaşadılmaqdadır.

B.Hüseynlinin notlaşdırdığı “Tənzərə” yallısının Ordubad variantının hissələri G şur məqamındadır.




Görkəmli etnomusiqişünas tərəfindən nota yazılmış “Tənzərə” yallısının Noraşen variantının hər iki hissəsi isə Cis şur məqamına əsaslanır.




Yallıların notlaşdırılması istiqamətində məqsədyönlü şəkildə görülən elmi işlərdən biri də Əhməd İsazadə ilə bəstəkar Nəriman Məmmədovun birlikdə tərtib etdikləri “Azərbaycan xalq mahnıları və oyun havaları” [7] adlı topludur. Buraya daxil olan nümunələr – xalq mahnıları və rəqsləri, o cümlədən, yallılar respublikamızın Ağdam, Şəki, Zaqatala, Balakən, Salyan, Naxçıvan bölgələrindən toplanmışdır. Məcmuəyə 24

yallı rəqsi daxildir ki, onların əksəriyyətinin Naxçıvan MR-nın ərazisindən, məhz Şərur, Ordubad və Şahbuz rayonlarından toplanılmasını xüsusilə qeyd etməliyik.

Adı çəkilən topluya daxil edilən "Tənzərə" yallısının hissələri D şur məqamına əsaslanır.



Milli-mənəvi incilərimizdən sayılan yallı rəqslərimizin tədqiqi sahəsində Ə.Ələkbərovanın gördüyü işlər maraqlı və dəyərlidir. Onun "Naxçıvan bölgəsinin yallı rəqsləri" adlı dissertasiya işi [15] bu janrın öyrənilməsi yolunda atılan daha bir addım kimi elmi əhəmiyyətə malikdir. Uzun illər yallı rəqslərini araşdırmış tədqiqatçı onların təsnifatını aparmış, müxtəlif zurnaçıların ifasından kişilərlə qadınların birlikdə ifa etdikləri "Tənzərə" yallısının 11 variantını üzə çıxarmış, bu rəqsi süjetsiz yallı növünə aid etmiş və onu "Köçəri" yallısı ilə müqayisəli təhlil edərək tədqiqatın sonunda maraqlı elmi nəticələrə gəlmişdir. Ə.Ələkbərovanın yazıya aldığı "Tənzərə" yallısının bütün variantları G şur məqamına əsaslanır. İlk variantın hissələrinə diqqət yetirək.



Bu rəqsin ikinci variantı da iki hissədən ibarətdir.



"Tənzərə" yallısının Ə.Ələkbərova tərəfindən nota yazılmış üçüncü variantının hissələri aşağıdakı nümunələrdə əks olunub.



Görkəmli etnomusiqişünasın nota yazdığı həmin rəqsin dördüncü variantı iki hissədən ibarətdir.



“Tənzərə” yallısının iki hissədən ibarət beşinci variantı dördüncü ilə məqam, temp və ölçü baxımından eynilik təşkil etsə də cüzi fərq yalnız ilk hissənin diapazonunda özünü göstərir.



Bu yallının bir hissəli variantına Ə.Ələkbərovanın not yazılarında rast gəlmək mümkündür.



Həmin rəqsin yeddinci variantı aşağıdakı not nümunəsində əks olunub.



Aşağıda təqdim edilən nümunədə “Tənzərə” yallısının iki hissədən ibarət səkkizinci variantının not yazısı öz əksini tapıb.



Bu rəqsin doqquzuncu variantı da iki hissəlidir.



Həmin yallının iki hissədən ibarət onuncu variantını aşağıdakı not nümunəsində görə bilərik.



"Tənzərə" yallısının iki hissədən ibarət olması on birinci variantdan da görünür.



"Yallı"larımızın qorunması və yaşadılması sahəsində görkəmli tarzən Əkrəm Məmmədlinin topladığı 92 yallı nümunəsi də çox dəyərlidir. Onun nota yazdığı rəqslər "Naxçıvan – Şərur el yallıları" adlı məcmuədə [9] işıq üzü görmüşdür ki, burada yallıların ifa xüsusiyyətlərindən, not yazılarından və variantlarından bəhs edilir. Həmin yallıların əksəriyyəti Naxçıvanın Şərur bölgəsinə aiddir. Lakin Şahbuz rayonundan və Türkiyənin İqdır, Ərzurum bölgələrindən toplanmış Azərbaycan köklü yallı rəqsləri də adı çəkilən məcmuəyə daxil edilmişdir. Ə.Məmmədlinin nota yazdığı qadınlar və kişilər tərəfindən birlikdə ifa olunan iki hissəli "Tənzərə" yallısı D şur məqamına əsaslanır.




Tədqiqatçı R.Bəhmənlinin uzun illər apardığı araşdırmalar nəticəsində ərsəyə gəlmiş "Azərbaycan yallıları" adlı dərs vəsaitində [3] Naxçıvan MR, Şəki, Şirvan, Kəlbəcər və İrəvandan toplanmış 90 adda yallı rəqsinin not yazısı, eləcə də onların

qədim tarixi, ritmik xüsusiyyətləri, xoreoqrafik oyun qaydaları haqqında geniş məlumat əks olunmuşdur. Onun 2003-2015-ci illərdə topladığı yallılar əsasən müxtəlif zurna və qismən də qarmon ifaçılarından nota salınmışdır. R.Bəhmənlinin 2003-cü ildə nota yazdığı "Tənzərə" yallısının Şərur variantı iki hissədən ibarət olub A şur məqamına əsaslanır.




Onun nota aldığı "Tənzərə" yallısının iki hissəli Ordubad variantı isə E şur məqamındadır.



Etnomusiqişünas R.Bəhmənli tərəfindən toplanmış və "Azərbaycan xalq rəqsləri" adlı məcmuədə [2] işıq üzü görmüş I hissəli "Tənzərə" yallısının E şur məqamına əsaslandığını qeyd etmək lazımdır.




Bu sətirlərin müəllifi də səs yazısı AMEA-nın "Muğamşünaslıq" şöbəsinin müdiri Sevil Fərhadova tərəfindən təqdim edilmiş 1930-cu illərdə B.Hüseynlinin Naxçıvan MR-nın Şərur rayonundan topladığı iki hissədən ibarət C mayəli "Tənzərə" yallısını (2014) nota yazmışdır.




Göründüyü kimi, "Tənzərə" yallısının variantları şur məqamının müxtəlif tonallıqlarına əsaslanır. Bunu "Şur" muğamının xalqımızın qədim musiqi təfəkkürünü əks etdirməsi və həmin tonallıqların zurna musiqi alətində işlək diapazona malik olması ilə əlaqələndirmək olar.

Nəzərdən keçirdiyimiz "Tənzərə" yallısının variantlarında melodiyanın ümumi lad-intonasiya xüsusiyyətini təqdim olunan not nümunələri ilə əks etdirməyə çalışdıq. Bu da I hissədə melodiyanın başlanğıcında şur məqamının tonikasından kvarta

tonuna yüksələn sıçrayışın intonasiya özəyinə çevrilməsindən ibarətdir. Lakin Ə.Ələkbərova tərəfindən nota yazılmış yallının yeddinci variantında hərəkətin aşağıya  $b_2$, ikinci variantında isə yuxarıya  $x_5$ intervalına olduğunu gördük.

II hissədə isə B.Hüseynlinin nota yazdığı “Ordubad” variantında melodiyanın hərəkəti aşağıya doğru $x_8$ 

intervalına və ikinci variantda nota yazdığı rəqsdə isə mayənin üst kvintasından pilləvari aşağıya  doğrudur. Ə.Ələkbərovanın notlaşdırdığı doqquzuncu və onuncu variantlarda isə yuxarıya $x_5$  intervalına istiqamətlənib.

“Tənzərə” yallısının variantları musiqi dilinin bəzi özünəməxsus xüsusiyyətlərinə dair mülahizələr irəli sürməyə imkan yaradır. Bu rəqsin intonasiya əsasını təşkil edən ilk submotiv yuxarıya əsaslanan $x_4$ intervalından ibarətdir. Səciyyəvidir ki, “Tənzərə” yallısının yaranma prosesində vacib rol oynayan həmin intonasiya özəyi digərlərində variant şəklində səslənir.

Aşağıda “Tənzərə” yallısının müxtəlif ifaçılar tərəfindən təqdim olunmuş və ayrı-ayrı illərdə etnomusiqişünasların nota yazdıqları variantları əhatə edən cədvəldə müəyyən məlumat toplanmışdır.

**Cədvəl № 1**

| Tənzərə yallısı | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **Nota salanın adı və soyadı** | **Hissə sayı** | **Variant sayı** | **Məqam tonallığı** | **Musiqi ölçüsü** | **Tempi** | **Hər hissənin melodik ambitusu** | **Kadans növü** | **İfaçının adı və soyadı** |
| B.Hüseynli | 2 | 2 | G şur | 2/4; 6/8 | *Adante; Moderato* | $g^1$-$d^2$ $g^k$-$es^2$ | I hissədə - tam II hissədə - tam | Bahəddin Əsgərov (qarmon), Eldar Nəcəfov (nağara) |
| | 2 | | Cis şur | 2/4; 6/8 (3/4) | *Andante; Moderato* | $h^1$-$a^2$ $cis^2$-$h^2$ | I hissədə - tam II hissədə - tam | |
| Ə.İsazadə və N.Məmmədov | 2 | 1 | D şur | 2/4 | *Allegretto ; Allegro* | $c^1$-$c^2$ | I hissədə - yarım II hissədə - tam | (Ehtimal edirik) İsmayıl Məmmədov (zurna) |
| Ə.Ələkbərova | 2 | 11 | G şur | 2/4; 6/8 | - | $g^1$-$c^2$ $g^1$-$d^2$ | I hissədə - tam II hissədə - tam | Hətəm Məmmədov (zurna) |
| | 2 | | G şur | 2/4; 6/8 | *Moderato ; Allegro* | $g^1$-$d^2$ $g^1$-$d^2$ | I hissədə - tam II hissədə - tam | Şirzad Həsənov (zurna) |
| | 2 | | G şur | 2/4; 6/8 | - | $e^1$-$f^2$ $f^1$-$d^2$ | I hissədə - yarım II hissədə - tam | İsa Mirzəyev (zurna) |
| | 2 | | G şur | 2/4; 6/8 | - | $f^1$-$d^2$ $g^1$-$d^2$ | I hissədə - tam II hissədə - tam | Nəriman Məmmədov (zurna) |
| | 2 | | G şur | 2/4; 6/8 | - | $g^1$-$d^2$ $g^1$-$d^2$ | I hissədə - tam II hissədə - tam | Həmid Qəniyev (zurna) |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | 1 | | G şur | 6/8 | - | $f^1$-$d^2$ | Yarım | Məmməd-hüseyn Həsənov (zurna) |
| | 2 | | G şur | 2/4; 6/8 | - | $f^1$-$d^2$<br>$f^1$-$d^2$ | I hissədə - yarım<br>II hissədə - yarım | Balay Kərimov (zurna) |
| | 2 | | G şur | 2/4; 6/8 | - | $f^1$-$d^2$<br>$g^1$-$f^2$ | I hissədə - tam<br>II hissədə - tam | Nağı Maqsudov (zurna) |
| | 2 | | G şur | 2/4; 6/8 | - | $g^1$-$f^2$<br>$g^1$-$es^2$ | I hissədə - yarım<br>II hissədə - tam | Rza Qurbanov (zurna) |
| | 2 | | G şur | 2/4; 6/8 | - | $f^1$-$f^2$<br>$e^1$-$es^2$ | I hissədə - yarım<br>II hissədə - tam | Rza Qurbanov (zurna) |
| | 2 | | G şur | 2/4; 6/8 | *Moderato ; Allegro* | $e^1$-$f^2$<br>$g^1$-$d^2$ | I hissədə - tam<br>II hissədə - tam | İsa Mirzəyev (zurna) |
| Ə.Məm-mədli və K.Məm-mədli | 2 | 1 | D şur | 2/4; 6/8 | *Andante; Allegro* | $d^2$-$c^3$<br>$c^2$-$b^2$ | I hissədə - tam<br>II hissədə - tam | Kamal Babayev (zurna), İsgəndər Əliyev (nağara) |
| R.Bəh-mənli | 2 | 3 | A şur | 2/4; 6/8 | *Andante; Allegro* | $g^1$-$e^2$;<br>$g^1$-$e^2$ | I hissədə - tam<br>II hissədə - tam | Nağı Maqsudov (zurna) |
| | 2 | | E şur | 2/4; 6/8 | *Andante; Allegro* | $e^1$-$h^1$;<br>$e^1$-$c^2$ | I hissədə - tam<br>II hissədə - tam | Hacı və Əbülfəz Abutalıbovlar (zurna) |
| | 1 | | E şur | 2/4 | *Moderato* | $e^1$-$h^1$ | Tam | - |
| F.Nəbiyeva | 2 | 1 | C şur | 2/4; 2/4 | *Allegro; Allegretto* | $c^1$-$g^1$;<br>$c^1$-$g^1$ | I hissədə - tam<br>II hissədə - tam | Bahəddin Əsgərov (qarmon), Eldar Nəcəfov (nağara) |

Yuxarıdakı cədvəldən göründüyü kimi, astadan cəldə doğru növbələşən yallıların əksəriyyəti iki hissədən ibarətdir. Variantlar arasında melodiyaların məqam pillələrinə istinadı, hərəkət formaları, inkişaf etdirilmə üsulları, səssırasının diapazonu fərqli olan nümunələr maraq doğurur. Bütün bunlar şifahi ənənə əsasında nəsildən-nəslə keçmiş “Tənzərə” yallısının ayrı-ayrı ifaçılarının fərdi yaradıcılıq üslubundan və fantaziyasından asılı olaraq müxtəlif variantların meydana gəlməsinə səbəb olmuşdur. Aparılan müqayisəli təhlillər variantlar arasında müxtəlifliyi və zənginliyi müşahidə etməyə imkan verir. “Tənzərə” yallısının nota yazılmış variantları müxtəlif ifaçıların hafizəsində mövcud olan özünəməxsus melodiyalar ilə yanaşı, rəngarəng nümunələrin də meydana gəldiyini göstərir ki, bütün bunlar təhlil edilərək cədvəl № 2-də və 3-də əks olunmuşdur.

**Cədvəl № 2**

| **“Tənzərə” yallısının variantlarında I hissənin təhlilləri** | | | | | | |
|---|---|---|---|---|---|---|
| **Nota salanın adı və soyadı** | **Variant №** | **Forma quruluşu** | **Fraza sayı** | **Xanə sayı** | **Melodik hərəkət** | **Təkrarın növü** |
| B.Hüseynli | 1. Noraşen variantı | Sadə dövr<br>a+b+b | 4<br><br>4 | 12<br><br>16 | I cümlədə - yüksələn-enən<br>II cümlədə - enən-yüksələn | Təkrar quruluşlu |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2. Ordubad variantı | Sadə dövr a+a+b+b | | | I cümlədə - yüksələn-enən<br>II cümlədə - enən-yüksələn | Təkrar quruluşlu |
| Ə.İsazadə və N.Məmmədov | 1. | Sadə dövr $a+a^1+a^2+a^3+a^4$ | 9 | 22 | I-IV cümlələrdə - yüksələn-enən | Dəyişilmiş |
| Ə.Ələkbərova | 1. | Sadə dövr $a+a^1$ | 4 | 8 | I cümlədə - yüksələn-enən<br>II cümlədə - enən | Dəyişilmiş |
| | 2. | Qeyri-kvadrat dövr $a+a^1+a^2+a^3+a^4$ | 10 | 20 | I-II-III cümlələrdə - yüksələn-enən<br>IV cümlədə - enən-yüksələn<br>V cümlədə - yüksələn-enən | Dəyişilmiş |
| | 3. | Qeyri-kvadrat dövr $a+a^1+b+c^1$ | 10 | 22 | I cümlədə - yüksələn-enən<br>II cümlədə - enən-yüksələn<br>III cümlədə - yüksələn-enən<br>IV cümlədə - enən-yüksələn | Dəyişilmiş |
| | 4. | Sadə dövr $a+a^1+b$ | 6 | 12 | I cümlədə - yüksələn-enən<br>II cümlədə - enən-yüksələn<br>III cümlədə - yüksələn-enən | Dəyişilmiş |
| | 5. | Sadə dövr $a+a^1$ | 4 | 8 | I cümlədə - yüksələn-enən<br>II cümlədə - enən-yüksələn | Dəyişilmiş |
| | 6. | Sadə dövr $a+a^1$ | 4 | 8 | I cümlədə - yüksələn-enən<br>II cümlədə - enən-yüksələn-enən | Dəyişilmiş |
| | 7. | Sadə dövr Giriş + a + $a^1$ | 4 | 12 | I cümlədə - yüksələn-enən<br>II cümlədə - enən-yüksələn | Dəyişilmiş |
| | 8. | Sadə dövr a+b | 4 | 8 | I cümlədə - yüksələn-enən<br>II cümlədə - eən-yüksələn | Dəyişilmiş |
| | 9. | Sadə dövr a+b | 4 | 8 | I-II cümlələrdə - yüksələn-enən | Təkrar yoxdur |
| | 10. | Qeyri-kvadratlı dövr a+b+c | 6 | 12 | I-II cümlələrdə - yüksələn-enən<br>III cümlədə yüksələn | Təkrar yoxdur |
| | 11. | Qeyri-kvadrat dövr a+b+c | 7 | 16 | I-II cümlələrdə - | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | | yüksələn-enən<br>III cümlədə enən-yüksələn | Dəyişilmiş |
| Ə.Məmmədli və K.Məmmədli | 1. | Sadə üç hissəli<br>**A** $(a+a^1+a^2)$ + **B** $(b+b^1+c+c^1)$ + **A** $(a+a^1+a^2)$ | 20 | 40 | I cümlədə - yüksələn-enən<br>II cümlədə - enən-yüksələn<br>III cümlədə - enən<br>IV cümlədə - yüksələn<br>V-VI-VII-VIII cümlələrdə - yüksələn-enən<br>IX cümlədə - enən-yüksələn<br>X cümlədə - enən | Dəyişilmiş |
| R.Bəhmənli | 1. Ordubad variantı | Sadə dövr<br>$a+a^1+b+b^1$ | 8 | 16 | I-II cümlələrdə - yüksələn-enən<br>III-IV cümlələrdə enən-yüksələn | Təkrar quruluşlu |
| | 2.Şərur variantı | Sadə dövr<br>$a+a^1+b+b^1$ | 8 | 16 | I cümlədə - yüksələn-enən<br>II-IV cümlələrdə - enən-yüksələn | Dəyişilmiş |
| | 3. | Sadə dövr<br>$a+a^1+b+b^1$ | 8 | 16 | I-II cümlələrdə - yüksələn-enən<br>II-IV cümlələrdə - enən-yüksələn | Dəyişilmiş |
| F.Nəbiyeva | 1. | Kvadrat dövr<br>$a+a^1+a^2+a^2+a^3+a^4+a^5+a^6+a^7$ | 18 | 36 | II-IX cümlələrdə - yüksələn-enən | Dəyişilmiş |

## Cədvəl № 3

**“Tənzərə” yallısının variantlarında II hissənin təhlilləri**

| **Nota salanın adı və soyadı** | **Variant №** | **Forma quruluşu** | **Fraza sayı** | **Xanə sayı** | **Melodik hərəkət** | **Təkrarın növü** |
|---|---|---|---|---|---|---|
| B.Hüseynli | 1. Noraşen variantı | Sadə dövr<br>a+b | 4 | 8 | I cümlədə - yüksələn-enən<br>II cümlədə - enən-yüksələn | Təkrar quruluşlu |
| | 2. Ordubad variantı | Sadə dövr<br>a+b | 4 | 8 | I cümlədə - enən-yüksələn<br>II cümlədə - enən-yüksələn | Təkrar quruluşlu |
| Ə.İsazadə və N.Məmmədov | 1. | Sadə dövr<br>$a+a^1+a^2+a^3$ | 7 | 14 | I cümlədə - yüksələn-enən<br>II cümlədə - enən-yüksələn<br>III-IV cümlələrdə - yüksələn-enən | Dəyişilmiş |
| Ə.Ələkbərova | 1. | Sadə dövr<br>$b+b^1$ | 4 | 8 | I cümlədə - yüksələn-enən<br>II cümlədə - enən-yüksələn | Dəyişilmiş |
| | 2. | Sadə dövr<br>$a+a^1+a^2+a^3$ | 8 | 16 | I-IV cümlələrdə - yüksələn-enən | Dəyişilmiş |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | 3. | | 4 | 8 | | |
| | 4. | Sadə dövr $a+a^1$ | 6 | 12 | I cümlədə - yüksələn-enən II-cümlədə - enən-yüksələn | Dəyişilmiş |
| | 5. | Sadə dövr a+b+c | 4 | 8 | I cümlədə - yüksələn-enən II cümlədə -enən-yüksələn III cümlədə - yüksələn-enən | Dəyişilmiş |
| | 6. | | - | - | | |
| | 7. | Sadə dövr $a+a^1$ | 6 | 12 | I cümlədə - yüksələn-enən II cümlədə - enən-yüksələn | Dəyişilmiş |
| | | - | | | - | - |
| | 8. | Sadə dövr $a + a^1+a^2$ | 4 | 8 | I cümlədə - yüksələn-enən II cümlədə - enən III cümlədə yüksələn | Dəyişilmiş |
| | 9. | | 4 | 8 | | |
| | 10. | Sadə dövr a+b | 4 | 8 | I cümlədə - yüksələn-enən II cümlədə - enən-yüksələn | Təkrar yoxdur |
| | 11. | Sadə dövr $a+a^1$ | 4 | 8 | I-II cümlələrdə - yüksələn-enən | Təkrar yoxdur |
| | | Sadə dövr $a+a^1$ | | | I-II cümlələrdə - yüksələn-enən | Təkrar yoxdur |
| | | Sadə dövr $a+b^1$ | | | I cümlədə - yüksələn-enən II cümlədə - enən-yüksələn | Dəyişilmiş |
| Ə.Məmmədli və K.Məmmədli | 1 | Mürəkkəb dövr $(a+a^1+a^2+a^{3)}$ + (b+b+c+c) | 14 | 32 | I-II cümlələrdə - yüksələn-enən III-VIII cümlələrdə - enən-yüksələn | Təkrar quruluşlu |
| R.Bəhmənli | 1.Ordubad variantı | Sadə dövr $a+a^1+a^2+a^3$ | 8 | 16 | I-II cümlələrdə - yüksələn-enən III-IV cümlələrdə enən-yüksələn | Dəyişilmiş |
| | 2.Şərur variantı | Sadə dövr $a+a^1+a^2+a^2$ | 8 | 16 | I-II cümlələrdə - yüksələn-enən III-IV cümlələrdə enən-yüksələn | Dəyişilmiş |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| F.Nəbiyeva | 1 | Sadə dövr $a+a^1+a^2+a^3+a^4+a^5+a^6+a^7$ | 14 | 31 | I-VIII cümlələrdə - yüksələn-enən | Dəyişilmiş |

Cədvəllərdən göründüyü kimi, "Tənzərə" yallısının variantları arasında sadə dövr formasında qurulmuş nümunələr çoxluq təşkil edir. Musiqi formasının araşdırılması variantların ilk frazadan yarandığını və onların elementlərinin variasiyası əsasında inkişaf etdiyini göstərir. Yuxarıdakı cədvəllərdən məlum olur ki, yallıların forma xüsusiyyətlərinin təhlili ayrı-ayrı variantlarda Əkrəm və Kənan Məmmədlilərin nota yazdığı nümunə istisna edilməklə sadə dövr formasındadır. Cari vaxtda "Tənzərə" yallısının mürəkkəb quruluşa malik olması bu rəqsin tarixlər ərzində sadədən mürəkkəbə doğru inkişaf etdiyini göstərən faktlardan biridir. Əkrəm və Kənan Məmmədlilərin nota yazdığı nümunədən göründüyü kimi, burada melodiya variasiyalı inkişafa əsaslanır və diapazonla yanaşı, formanın da genişlənməsi müşahidə olunur.

Melodik təhlillərin nəticəsi göstərir ki, (Bax: cədvəl № 2 və 3) B.Hüseynlinin notlaşdırdığı "Tənzərə" yallısının Ordubad variantında ilk hissədə melodiyanın hərəkəti enən-yüksələn, digər variantlarda isə I hissədə yüksələn-enən, II hissədə isə enən-yüksələn istiqamətlidir. İkinci hissəsi birincidən fərqli musiqi məzmununa malik olan "Tənzərə" yallısının variantlarında çox zaman sonuncu hissənin musiqi məzmunu birincinin variasiyası əsasında qurulur ki, bunu təqdim edilən not nümunələri ilə əks etdirdik.

Yallı variantlarının not yazılarının müqayisəsi onların forma, melodik, ritmik quruluş xüsusiyyətlərinin oxşar və fərqli cəhətlərini üzə çıxarmaq üçün zəngin tədqiqat materialıdır. Müqayisəli təhlillərin aparılması "Tənzərə" yallısının variantları arasında arxaik nümunələrin tarixlər ərzində dəyişikliyə uğramasını, təkmilləşməsini və geniş inkişaflı nümunələrə çevrilməsini aşkar etməyə imkan verir. Ehtimal ki, bu yallının arxetipi müxtəlif tarixi dövrlərdə aktuallaşaraq ayrı-ayrı ifaçıların təfsirində yeni variantlar şəklində təzahür etmişdir. Bütün bunlar "Tənzərə" yallısının özünəməxsus inkişaf yolu keçmiş kütləvi şəkildə ifa edilən Azərbaycan xalq rəqslərindən biri olduğunun təzahürüdür.

"Tənzərə" yallısının variantlarında hər iki hissədə ilk frazaların ritmik xüsusiyyətlərinin oxşar və fərqli cəhətlərinə nəzər salaq:

**Cədvəl № 4**

| "Tənzərə" yallısının variantlarında ilk frazada I və II hissənin ritmik şəkilləri | | | |
|---|---|---|---|
| **Nota salanın adı və soyadı** | **Variant №** | **I hissə** | **II hissə** |
| B.Hüseynli | 1. Noraşen variantı |  |  |
| | 2. Ordubad variantı |  |  |
| Ə.İsazadə və N.Məmmədov | 1. |  |  |

| | | | |
|---|---|---|---|
| Ə.Ələkbərova | 1.<br>2.<br>3.<br>4.<br>5.<br>6.<br>7<br>8.<br>9.<br>10.<br>11. |  |  |
| Ə.Məm-mədli və K.Məm-mədli | 1 |  |  |
| R.Bəhmənli | 1.Ordubad variantı<br>2.Şərur variantı<br>III variant |  |  |
| F.Nəbiyeva | 1 |  |  |

Metroritmik xüsusiyyətləri zahirən bir-birinə oxşayan "Tənzərə" yallısının variantlarında hər birinin metrik ölçülərində xanədaxili ritmik formulların müxtəlif şəkilləri bu rəqsin rəngarəngliyini əmələ gətirir ki, onları yuxarıdakı cədvəldən də görmək mümkündür. B.Hüseynlinin nota yazdığı "Tənzərə" yallısının Noraşen, Ə.İsazadə ilə N.Məmmədovun notlaşdırdıqları variantda, Ə.Ələkbərovanın nota saldığı dördüncü, Ə.Məmmədlinin, eləcə də R.Bəhmənlinin nota aldığı Ordubad variantının II hissəsində "tərs ritm" növünü görmək olar. "Qaytağı ritm" növü isə Ə.Ələkbərovanın nota yazdığı yallının yeddinci variantında özünü əks etdirir. Melodik dil xüsusiyyətlərinə və ritmik şəkillərinin müxtəlifliyinə görə rəngarənglik təşkil edən "Tənzərə" yallısının bütün variantları bu folklor incisinin qədim ənənələrdən süzülüb gəldiyini

göstərir. "Tənzərə" yallısının variantlarının musiqi dili ilə yanaşı, ritmində əks olunan müxtəlif şəkilləri erkən ifaçılığa xas olan əlamətlərin xalqımızın musiqi təfəkküründəki inikası olduğunu ehtimal edirik.

Cədvəl № 4-dən də göründüyü kimi, I hissədə ilk frazalarında ritmik şəkilləri eyni olan, müxtəlif tədqiqatçıların - B.Hüseynlinin notlaşdırdığı "Tənzərə" yallısının Noraşen variantı ilə Ə.Ələkbərovanın nota saldığı rəqsin səkkizinci variantı, o cümlədən B.Hüseynlinin yazdığı Ordubad variantı ilə Ə.Ələkbərovanın notlaşdırdığı beşinci variant və R.Bəhmənlinin nota yazdığı birinci və üçüncü variantlar fraza və xanə sayına, melodiyanın hərəkət istiqamətinə, sıçrayışlarına, kadanslarına, melodik ambitusuna görə fərqlənir. Bu siyahıya Ə.Ələkbərova tərəfindən yazılmış "Tənzərə" yallısının üçüncü ilə dördüncü, doqquzuncu və onuncu, eləcə də girişlə başlanan və cüzi fərqlə seçilən yeddinci variantı daxil edilə bilər.

R.Bəhmənlinin nota yazdığı "Tənzərə" yallısının Şərur variantı ilə bu sətirlərin müəllifinin nota aldığı rəqsin ilk frazalarında ritmik şəkillər eyni olsa da həcm etibarilə fərqlilik aşkar olunur. Bunu Ə.Ələkbərovanın notlaşdırdığı "Tənzərə" yallısının beşinci variantı ilə R.Bəhmənlinin nota aldığı üçüncü və Ordubad variantlarında da müşahidə etmək mümkündür. Buradan belə nəticəyə gəlirik ki, ritmik şəklinə görə eyni olan variantlar təkcə həcm baxımından deyil, həm də melodiyanın hərəkəti, inkişaf üsullarına, kadanslarına və s. görə fərqlilik təşkil edir.

B.Hüseynlinin nota saldığı "Tənzərə" yallısının Noraşen variantının II hissəsi ilə Ə.Ələkbərovanın notlaşdırdığı rəqsin səkkizinci variantı müxtəlif ifaçılardan yazılmasına baxmayaraq ritmik şəkillərinə görə eynilik təşkil edir. Ə.Ələkbərovanın ayrı-ayrı ifaçılardan notlaşdırdığı "Tənzərə" yallısının ikinci və beşinci variantlarında da oxşarlıqları müşahidə etmək mümkündür. İsa Mirzəyevin ifasından Ə.Ələkbərova tərəfindən nota yazılmış üçüncü və on birinci variantlar ritmik şəkillərinə görə eyni olsa da onun nota aldığı dördüncü variant ilə Ə.Məmmədlinin və R.Bəhmənlinin notlaşdırdığı Ordubad variantı arasında fərq səssırasının diapazonunda müşahidə olunur.

"Tənzərə" yallısının variantlarının əksəriyyəti eyni dövrdə yaşamış müxtəlif şəxslərin ifalarından nota yazılmasına baxmayaraq, onlar arasında oxşar cəhətlərlə yanaşı, fərqli xüsusiyyətlərin də özünü aşkar etdiyi aydın olur. Güman ki, oxşar cəhətlərin mövcudluğu həmin bölgənin zurna ifaçılıq mühitinin ənənələri ilə bağlıdır. Rəngarənglik yaradan fərqli cəhətləri isə müxtəlif ifaçıların yaradıcılıq fantaziyası ilə əlaqələndirmək mümkündür.

Apardığımız araşdırmanın nəticəsinə əsaslanıb bəzi qənaətləri ümumiləşdirmə şəklində qeyd etmək istərdik. "Tənzərə" yallısının variantları özünün ilkinliyini, autentikliyini qoruyub saxlamaqla yanaşı, həm də forma quruluşu və ritmik baxımdan inkişaf edərək Naxçıvan MR ərazisində geniş yayılmışdır. Bu mühit tarixən ol-duğu kimi, indi də yallı rəqs ənənəsinin inkişafı üçün zəngin potensiala malikdir. Naxçıvan MR-da müxtəlif yaş kateqoriyalarını əhatə edən üç yallı kollektivinin – "Nurani", "Şərur" və "Şərur qönçələri"nin fəaliyyət göstərməsi bunun əyani təzahürüdür.

Göründüyü kimi, təhlil edilənlər arasında məhdud səs ambitusuna görə arxaik nümunələr Ə.Ələkbərovanın nota yazdığı birinci və beşinci variantlardır. Əvvəllər

vokal-instrumental şəkildə ifa edilən “Tənzərə” yallısı müasir dövrümüzə instrumental rəqs növü kimi gəlib çatmışdır ki, bunu mənbələrdə mövcud olan not yazıları da təsdiq edir. Ehtimal ki, bu yallının instrumental müşayiətlə ifa edilən növlərinin meydana gəlməsi və geniş yayılması tədricən onun vokal-instrumental müşayiət növünü sıxışdırmışdır. Amma buna baxmayaraq xalqımızın genetik yaddaşında mövcud olan vokal müşayiət növü tamamilə musiqi və rəqs mədəniyyətimizdən silinib getməmişdir. Naxçıvan musiqi folklorunda “dil yallıları” kimi tanınan yallı növünün mövcudluğu eyni janr daxilində müxtəlifliyi və rəngarəngliyi göstərən faktlardan biridir.

Nadir sənət incilərimizdən sayılan yallıların toplanması, nota yazılması və nəşr edilərək gələcək nəsillərə mənəvi miras kimi ötürülməsi, eləcə də qayaüstü təsvirlərə əsasən tədqiqi, ifa edilməsi, xoreoqrafik və musiqi tərəfdən müqayisəli şəkildə araşdırılması müasir paleoxoreoqrafiyanın, etnoxoreologiyanın və etnomusiqişünaslığın əsas vəzifələrindəndir. Digər yallı rəqslərimizi də gələcəkdə müqayisəli şəkildə tədqiqat obyektinə çevirməklə milli musiqi xəzinəmizi və Azərbaycan etnomusiqişünaslığını daha da zənginləşdirəcəyimizi güman edirik.

Qədim tarixə malik bu zəngin mənəvi sərvətimizi tədqiq və bütün dünyada təbliğ etmək hər bir etnomusiqişünasın, eləcə də rəqs kollektivlərinin əsas vəzifəsidir. Buna görə də mövcud elmi mənbələrdəki not yazılarının araşdırılması və işıq üzü görməmiş yallı rəqslərinin not nəşrlərinin hazırlanaraq geniş musiqi elmi ictimaiyyətinin ixtiyarına verilməsi bizim ən şərəfli vəzifələrimizdən biridir.

**ƏDƏBİYYAT:**

**Azərbaycan dilində**

1. Azərbaycanın ən qədim yallılarından biri: Köçəri. Naxçıvan, “Əcəmi” NPB, 2018, 104 s.
2. Bəhmənli R.B. Azərbaycan xalq rəqsləri. B.: Adiloğlu, 2002, 157 s.
3. Bəhmənli R.B. Azərbaycan yallıları. B.: Mütərcim, 2018, 140 s.
4. Hüseynli B.X. Azərbaycan xalq rəqs melodiyaları. I dəftər. B.: Azərnəşr, 1965, 42 s.
5. Həsənov K.N. Qədim Azərbaycan xalq rəqsləri. B.: İşıq, 1983, 59 s.
6. İsazadə Ə.İ; Məmmədov N.H. Azərbaycan xalq mahnıları və oyun havaları. B.: Elm, 1984, 76 s.
7. İbrahimov V (Çörəkçi). “Yallı” birlik rəmzidir. B.: Şirvannəşr, 2003, 142 s.
8. Məmmədli Ə.M; Məmmədli K.Ə. Naxçıvan-Şərur el yallıları. Naxçıvan, “Əcəmi” NPB, 2015, 276 s.
9. Rzayev F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən (miladdan öncə VI-III minilliklər). I c. B.: ADPU-nun mətbəəsi, 2013, 528 s.
10. Rzayev F.H. Naxçıvan yallı adlarında əski dilimiz, tariximiz və şamançılıq izləri / “Ulu Öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər” (3-5 may 2016-cı ildə keçirilmiş Beynəlxalq Elmi konfransın materialları). II hissə. B.: Mütərcim, 2016, s. 336-338.
11. Seyidov M.M. Azərbaycan xalqının soykökünü düşünərkən. B.: Yazıçı, 1989, 485 s.
12. Kərimli Ə.K. Yallı. B.: Şirvannəşr, 2004, 115 s.

**Rus dilində**

13. Алекперова А.М. Хороводные танцы «яллы» Нахичеванской зоны: Автор. диссерт.на соиск.уч.степ.кандид.искусств. Баку, 1994, 24 с.

14. Алекперова А.М. Хороводные танцы «яллы» Нахичеванской зоны: Дис. ... кандид. искусств. Баку, 1994, 124 с.

**Saytoqrafiya:**

15. Hacıbəyli Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları. Elektron versiyası. URL:http://musbook.musigi-dunya.az/
16. Tənzərə yallısı. İfa edir: Kəngərli rayon mədəniyyət sarayının “Sarı gəlin” yallı kollektivi. URL: https://www.youtube.com/watch?v=AF7ELPpgha8
17. Tənzərə yallısı. URL: https://www.youtube.com/watch?v=-LI573nNrVE

**Фазиля НАБИЕВА**
Старший научный сотрудник лаборатории
«Усовершенствование национальный
музыкальных инструментов» АНК,
Доктор философии по искусствоведении

## СПЕЦИФИЧЕСКИЕ ЧЕРТЫ РАЗНОВИДНОСТЕЙ ХОРОВОДНОГО ТАНЦА «ТЕНЗЕРЕ»

***Резюме:*** *Представленная статья посвящена древнему азербайджанскому хороводному танцу «Тензере», который воплощает единение и единство, и включён в список нематериального наследия ЮНЕСКО. В исследовании указаны выводы об этимологии этого танца. Для сравнительного анализа привлечены разновидности хоровода «Тензере», собранные и нотированные отдельными авторами в разные годы. Специфические черты данных разновидностей отражены в составленных автором таблицах.*

***Ключевые слова:*** *танец, хоровод, Тензере, нотирование, разновидность*

**Fazila NABIYEVA**
Senior Researcher of the laboratory
“Improvement of national musical instruments” of ANC, Ph.D

## SPECIFIC FEATURES OF VARIETIES OF THE ROUND DANCE “TENZERE”

***Summary:*** *The presented article is about the ancient Azerbaijani round dance "Tenzere", personifies unity and coherence, and is included in the list of urgent protection of UNESCO. The study provides conclusions about the etymology of this dance. Varieties of the “Tenzere” round dance, collected and notated by individual authors in different years are involved in a comparative analysis. Specific features of the options are reflected in the tables compiled by the author.*

***Keywords:*** *dance, round dance, Tenzere, notation, variety*

**Rəyçilər:** sənətşünaslıq üzrə elmlər doktoru, professor Ülkər Əliyeva
sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Lalə Hüseynova